Xalq qəzeti.- 2022.- 16 oktyabr. - S. 5

Füzulinin azad olunmasından 2 il keçir

# Qisas qiyamətə qalmadı



**2020-ci il. Payızın ilk günləridir. Azərbaycan–Ermənistan arasında informasiya müharibəsi getdikcə şiddətlənir. Prezident İlham Əliyev düşmən ölkənin işğal siyasətindən hələ də əl çəkmədiyini, hərbi gücünü cəmləşdirib hücuma hazırlaşdığını bildirir. Dövlət başçısının bu fikri sentyabrın 27-də öz təsdiqini tapır: Ermənistan ordusu bütün cəbhə boyu hücuma keçir. Buna cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatı başlayır. Hərbi komissarlıqların qarşısında izdiham yaşanır. Cəbhəyə getmək istəyənlərin sayı-hesabı bilinmir. Otuz ilə yaxın müddətdə işğal altındakı torpaqlarımızı düşməndən təmizləmək üçün döyüşə atılan hər bir vətəndaşımız hərb tarixinə qızıl hərflərlə yeni səhifələr yazır. Xalq yumruq kimi birləşir, Ali Baş Komandanın, Müzəffər ordunun arxasında dayanır.**

...Savaş günlərində gecələr yuxular ərşə çəkilir. Hamı səhəri dirigözlü açır, Ali Baş Komandanın dilindən şəhər və kəndlərin alınması müjdəsini eşitmək üçün saatları sayır. Hər kəsin qələbə sevinci göz yaşları ilə yuyulur, hər kəs zəfər fərəhindən qürurlanır, sanki təzədən doğulur, sanki illərlə əsirlikdə qalan Vətənin bir zərrəsinə çevrilib Vətənləşir. Lap şairin dediyi kimi:

*Mənə bu xəbəri qəfil deməyin,*
*Qəmin də karvanı ötən olurmuş...*
*Vətən savaşında, yurd davasında*
*Hər insan bir zərrə Vətən olurmuş...*

...Oktyabrın 17-si 2020-ci il. Prezident, Ali Baş Komandan İlham Əliyev həmin gün özünün rəsmi "Twitter" səhifəsində bildirir: "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Dövlətimizin başçısı daha sonra xalqa müraciət edərək, deyir: "Şəhidlərin, günahsız insanların qisası döyüş meydanında alınır. Azərbaycan mülki əhaliyə qarşı mübarizə, müharibə aparmır, bizim ermənilərdən fərqli olaraq öz yolumuz var, öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşərək, həmrəylik, vətənpərvərlik göstərir".

Azərbaycan Ordusu Füzuli əməliyyatı, Füzuli qələbəsi ilə tarixi, qədim yaşayış məskənimizi özümüzə qaytardı, minlərlə köçkünü doğma od-ocağına qovuşdurdu. Eyni zamanda, Silahlı Qüvvələrimiz Füzulinin təmas xəttində yerləşən və uzun bir zaman ərzində möhkəmləndirilən bir neçə müdafiə xəttini, istehkamı, hətta ən tanınmış hərbi mütəxəssislərin inanmadıqları böyük peşəkarlıq, fədakarlıq göstərərək, yarmaqla növbəti strateji üstünlüklər əldə etdi, bu şərəfli missiyanın öhdəsindən uğurla gəlməklə Böyük Zəfər gününü yaxınlaşdırdı.

Bəli, savaş davam etdiyi günərdə xalqımızın Azərbaycan Prezidentinə inam hissi hər birimizi qürurlandırırdı. Vətənimizin ərazi bütövlüyünü bərpa etməyə qadir olan ordumuzun ruh yüksəkliyi, qələbə əzmi, Ali Baş Komandanın rəhbərliyi ilə qarşıya qoyulan döyüş tapşırıqlarını şücaətlə, qəhrəmanlıqla yerinə yetirməsi, bunu özünün namus və şərəf borcu sayması hər birimizi duyğulandırırdı. Azərbaycanın hər bir vətəndaşı, torpağı yağı tapdağında qalan, yer-yurdundan didərgin düşən hər bir kəs bu müharibənin zəfərlə başa çatacağına qəlbən inanırdı, bayrağımızın Qarabağda dalğalanacağı, şəhidlərimizin qisasının alınacağı günün tezliklə gələcəyi ümidi, inamı ilə yaşayırdı.

Ali Baş Komandanın Füzuli şəhərinin işğaldan azad edilməsi müjdəsini eşidəndən dərhal sonra tələbə yoldaşım İntiqam Əbilova telefon açıb təbrik edirəm, gözaydınlığı verirəm. Xəttin o başında isə İntiqamın sevinc hıçqırıqlarını eşidirəm.

İntiqam az sonra hıçqırıqlarına ara verib deyir ki, bir qərinəyə yaxın zaman ərzində gecələr yuxularımda, gündüzlərsə söhbətlərimdə doğma Füzulinin, evimizin, həyət-bacamızın düşmən tapdağında qalmasını təsəvvürümə gətirəndə ürəyimdən qara qanlar axıb. Amma beynimdə, düşüncəmdə Azərbaycanın bir gün şimşək kimi çaxacağına inanmışam, ordumuzun yağıdan qisas alacağı, torpaqlarımızı xilas edəcəyi ümidi ilə yaşamışam...

Tələbə yoldaşım telefon söhbətində doğma yurd-yuvasından köçkün düşdükləri ərəfədə rəhmətlik nənəsinin sözlərini də xatırladır: "Təndir damı" dediyimiz evin divarlarında ilan gəzdiyini nə mən, nə də bacılarım görməsə də, his üzərində saldığı izlər açıq- aydın nəzərə çarpırdı. Nənəm bu hadisənin şahidi olduğunu söyləyir, ilanların babalarımızın ruhundan qorxduğuna görə, bu evdə heç kəsə dəyib-toxunmadığını bildirirdi. Danışırdı ki, amma düşmən ona dar gündə qucaq açan, duz-çörək verən babalarımızın ruhundan çəkinmədi, bizi – nəvənəticələrini belə didərgin saldı, ev-eşiyimizi xaraba qoydu, var-dövlətimizi taladı..."

İntiqam Əbilov Füzulinin azad olunmasından sonra bəlkə də əvvəllər şübhə ilə yanaşdığı "haqq nazilsə də, üzülmür", "qisas qiyamətə qalmır" deyimlərinin indi bir daha təsdiqləndiyinin şahidi oldu.

**V.BİNYƏTOĞLU,**
**"Xalq qəzeti"**